


# Azərbaycan xalçalarında yeni ornamental kompozisiya

Münəvvər Hacıyeva
*dossent*

***Açar sözlər:*** *Azərbaycan xalçaları, musiqi alətləri, bəzək elementləri, ara sahə, haşiyə zolağı, ornamental kompozisiya.*



Məlum olduğu kimi, Azərbaycan xalçaçılığında həm həndəsi, həm nəbati formalı elementlər əsasında işlənmiş sonsuz sayda kompozisiyalar var.

Xalçalarımız üzərində dəfələrlə rast gəldiyimiz həndəsi naxışlar nisbətən quru, statik, özü də əksər hallarda o biri bəzək elementləri ilə az əlaqədə işlənsə də, öz orijinallığı və bədii obrazlılığı ilə həmişə dekorativ sənətin ayrılmaz tərkib hissəsi olmuşdur. Sırf həndəsi formalı (romb, kvadrat, düzbucaqlı, çoxbucaqlı və s.) elementlərdən başqa, bu naxışlar arasında heyvanların, bitkilərin, məişət əşyalarının da stilizə edilmiş müxtəlif formalarına rast gəlmək olur.

XV–XVIII əsrlərdə özünün ən yüksək inkişaf mərhələsinə çatmış nəbati naxışlar da Azərbaycan xalçaçılığında çox geniş yayılmışdır. Əsasən, Azərbaycanın zəngin təbiətindən götürülmüş bu formalar (yarpaq, çiçək, budaq, ağac, kol və s.) xalqımızın təbiətlə sıx əlaqədə olmasını göstərir. Nəbati naxışlar içərisində ən cox yayılanlar aşağıdakılardır: lalə, qızılgül, qərənfil, nərgiz, süsən, nilufər, sərv, nar, palıd və s.


Mirzə Əlinin "Məclis" qoşa miniatürü (Bərbətin təsviri).


"Yaylaqda musiqi məclisi" (Qopuzun və dəfin təsviri)

Nəbati bəzək elementləri dekorativ-tətbiqi sənət sahələrində xüsusilə də xalçaçılıq sahəsində sonsuz saydadır. Onların hər birinin özünəməxsus gözəlliyi və orijinallığı var.

Ümumiyyətlə, Azərbaycan xalçalarının kompozisiyalarına nəzər salsaq onların ornament baxımından nə qədər zəngin olduğunu görərik.

Lakin bütün bunlara baxmayaraq, Azərbaycan dekorativ-tətbiqi sənətinin, o cümlədən, xalça sənətinin ornamentləri durmadan zənginləşir. Bu proses xalq ustalarının tükənməyən yaradıcılığı və peşəkar xalça rəssamlarının fantaziyası əsasında baş verir.

Son illər ornamentalistika sahəsində aparılan tədqiqatların nəticəsi olaraq, xalça kom-




pozisiyalarını təşkil edən naxışların sırasına milli, xalq çalğı alətlərimizin stilizə olunmuş rəsmləri də daxil olmuşdur.

Milli musiqimiz Azərbaycan incəsənətinin ən qədim və maraqlı sahələrindən biridir. Məlumdur ki, musiqi bilavasitə alətləri ilə birlikdə yaranmışdır. Qədim musiqimiz ilk ünsiyyət və informasiya mübadiləsi vasitələrindən biri olmuşdur. İnsanlar təbiət hadisələrinə (ildırım çaxması, daşqın, zəlzələ, yer sürüşməsi) olan münasibəti bildirmək üçün xüsusi ayinlər və mərasimlər keçirirdilər. Müvafiq mənbələrə istinad edərək, qeyd olunmalıdır ki, ən əvvəl təbii vasitələrdən-səs və əl çalmalardan istifadə olunurdu.

Çalğı alətləri xalqın musiqi mədəniyyətinin mühüm göstəricilərindən biridir. Onların müxtəlif növlərinin yaranması və geniş istifadəsi, şübhəsiz ki, əsrlər boyu formalaşan musiqi mədəniyyətimizin inkişafından xəbər verir. Klassik ədəbiyyatımızda (N.Gəncəvi, M.Füzuli, Q.Təbrizi və s. şairlərimizin əsərlərində), miniatürlərimizdə, eyni zamanda təsviri və tətbiqi sənətin digər sahələrində də çalğı alətlərimizin adı çəkilir və təsvirləri verilir. Aydındır ki, şairlər musiqi alətlərinin təkcə adlarını çəkməklə kifayətlənməmişlər.

Öz qəhrəmanlarının daxili aləmini, istəklərini şərh edərkən, habelə təntənəli görüşlərin, dəbdəbəli qəbulların və döyüş səhnələrinin təsvirini verərkən onlar bu və ya digər çalğı alətinin xarici görünüşünü, quruluşunu və səslənmə xüsusiyyətlərini çox bacarıqla vəsf etmişlər.

Bu cəhətdən, Azərbaycanın orta əsr miniatür rəssamlarının əsərlərinin üstünlüyü şübhəsizdir.

Lakin qeyd etmək lazımdır ki, həm miniatürlərdə, həm də tətbiqi sənət əsərlərində biz çalğı alətlərinin real formalarının təsviri ilə rastlaşırıq.

Azərbaycanın çalğı alətləri 3 qrupda birləşir: zərb alətləri, nəfəs alətləri və simli alətlər.

Aparılmış elmi-tədqiqat işləri nəticəsində adı çəkilən milli musiqi alətlərimizdən 28 alət stilizə edilərək ornament şəklində işlənmişdir. Onların xalçalarda bəzək elementi kimi tətbiq edilməsi bu sahədə yeni bir istiqamət olmuşdur. Eyni zamanda qeyd etmək lazımdır ki, elmi-tədqiqat işi patent almaqla bir daha özünü təsdiqləmişdir. Bu alətlərin hər birinin özünəməxsus sadə və mürəkkəb formaları vardır. Buna görə də ornamentalistika sahəsində stilizə olunaraq tətbiq edilən milli musiqi alətlərinin xalçalarda işlənmə üslubu da müxtəlifdir. Onlar kompozisiyanın quruluş








və məzmunundan asılı olaraq müxtəlif formalarda istifadə oluna bilər. Məsələn, mənim yaratdığım yeni "təkgöllü" xalça kompozisiyasında xalçanın həm ara sahəsi, həm də haşiyə zolağı 22 xalq çalğı alətinin (zərb, nəfəs, simli) stilizə olunmuş təsvirləri ilə bəzənmişdir. Bu xalçada 6 zərb alətinin (qoşa nağara, dəf, qaval, dümbək və zəng), 5 nəfəsli alətin (tulum, zurna, ney, tütək və balaban) və 11 simli alətin (tənbur, rübab, çoğur, çəğanə, tar, kaman, kamança, bərbət, cürə saz, səntur və qanun) stilizə olunmuş rəsmlərindən istifadə olunmuşdur. Xalçanın ara sahəsində üç göl (ikisi kvadrat, biri isə düzbucaq formalı) yerləşdirilmişdir. İki kvadratşəkilli gölün içərisində zərb aləti olan "qaval" elementi verilmişdir. "Qaval" elementinin içərisində isə simli alətlərdən olan "çoğur" və "çəğanə"elementinin təkrarlanan təsvirləri göstərilmişdir. Gölün hər dörd küncü nəfəs aləti olan "tulum" elementi, gölün dörd tərəfini isə zərb aləti olan "zəng" elementinin növbələşən rəsmi əhatələmişdir.

Ara sahənin mərkəzində yerləşən göl isə simli alətlərdən olan "qanun" və "səntur" təsvirinin həm üfüqi, həm də şaquli istiqamətdə simmetrik birləşməsindən əmələ gəlmişdir. Xalçanın ara sahəsində doldurucu və köməkçi elementlər kimi digər musiqi alətlərinin stilizə olunmuş naxışları yerləşdirilmişdir. Ara sahənin aşağı (xalça simmetriya əsasında işləndiyi üçün, xalçanın dörddə bir hissəsi təkrarlanır) və yuxarı hissəsində bir-biri ilə birləşən və bir xətt üzərində yerləşən "rübab"ın şəkli əks edilmişdir. Ara sahənin sağ və sol tərəflərində haşiyə zolağına paralel şaquli istiqamətdə "kamança"lar, "zurna", "tütək", "ney" rəsmləri yerləşdirilmişdir. Öz formasına görə digər musiqi alətlərindən fərqlənən "kaman"ın təsviri yan görünüşlü olub həndəsi formada deyil, nəbati naxış üslubunda işlənmişdir. Xalçanın ara sahəsində kompozisiyanın məzmununa uyğun olaraq köməkçi və doldurucu element kimi istifadə olunan iki düzbucaqlıdan birinin içərisində qayaüstü rəsmlərdən götürülmüş kütləvi mərasim rəqslərinin təsviri, digərində həmin rəqsin müasir forması əks edilmişdir. Kvadratşəkilli göllərin hər iki tərəfində gölə bitişik "tar"ın gövdə hissələri verilmişdir.

Xalçanın mərkəzində yerləşən gölü digər iki göllə əlaqələndirən uzunsov həndəsi formanın mərkəzində "qaval" elementi olmaqla, bir-birini təkrarlayan "bərbət" elementləri ilə işlənmişdir.

Məlum olduğu kimi, xalçaların haşiyə zolağı "ana", "bala" haşiyələr, "siçandişi"lər və ləvərdən ibarətdir. "Ana" haşiyənin naxış






qarışlarını qarşı-qarşıya işlənmiş iki "tənbur" elementi və gövdələri ilə bir-biri ilə birləşən "rübab" rəsmləri təşkil edir. "Bala" haşiyələrin bəzəyini "zurna", "qoşa nağara" təsvirləri və onların "çubuq"ları formalaşdırır. Haşiyələri bir-birindən qara və ağ rəngli "siçandişi"lər ayırır.

Haqqında danışılan bu xalça xovludur, "ilmə-düyün" texnikası ilə toxunmuşdur. Ölçüsü 75x100-dir.

Nəticədə qeyd etməliyik ki, musiqi alətlərinin stilizə edilərək xalça kompozisiyalarında yeni bir element kimi təsvir edilməsi xalça kompozisiyalarının naxış sistemini zənginləşdirməklə bərabər, həm də onu sübut etməyə imkan verəcək ki, kökü çox-çox qədimlərə gedib çıxan bütün bu musiqi alətləri məhz Azərbaycana məxsus olmuşdur. Azərbaycan xalçaçılığında neçə-neçə əsrlər bundan qabaq mövcud olmuş və qorunub saxlanaraq müasir dövrümüzə kimi gəlib çatmış bir sıra elementlər kimi, xalça sənəti ornamentalistikasına yenicə daxil olmuş bu elemntlər də xalçalar üzərində əksini tapmaqla, öz kökünü qoruyub saxlamaq üçün gözəl zəmin yaradacaq.









**Ədəbiyyat:**

1. Керим Керимов. Азербайджанские миниатюры (на азербайджанском, русском, английских языках). Баку. «Ишыг». 1980. 221 с.
2. Rasim Əfəndi,Toğrul Əfəndi. Azərbaycan Bəzək sənəti. Bakı-2002. "BP" şirkətinin sponsurluğu ilə. 80 s.
3. Abdullayeva S.A.Azərbaycan xalq çalğı alətləri (musiqişünaslıq-orqanoloji tədqiqat). Bakı, "Adiloğlu" nəşriyyatı, 2002-ci il, 454 s.
4. Münəvvər Hacıyeva. Xalça sənəti ornamentalistikasında yeni istiqamətin işlənməsinə dair.İncəsənət və Mədəniyyət problemləri Beynəlxalq Elmi jurnal, №1 (31). Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu. "Təknur" nəşriyyatı. Bakı – 2010, 249 s(351s).
5. Алиева К.М. Безворсовые ковры Азербайджана XVII - XX вв. Баку, Ишыг, 1988 – с.144.
6. Лятиф Керимов. Азербайджанский ковер (на азербайджанском, русском, английских языках). Bakı, Yazıcı, 1985, 236 s.
7. Patent. İxtira – İ 2012 0017. Xalçanın bəzədilməsi üsulu. 22.02.2010. Münəvvər Hacıyeva.

*Munavvar Hajiyeva,*
***associate professor***

***New ornamental pattern in Azerbaijani carpets***

***Summary***

***Keywords:*** *Azerbaijani carpets, musical instruments, stylized elements, middle field, border strips, ornamental composition*

The new direction in the carpet arts is discussed in this article.

Contributor of article is presented the new direction in the national ornamental art, where stylized elements are created on the basis of the folk music instruments: camancha, tar, tanbur, rubab, santur, qosha nagara, balaban, zurna, tulum, and etc.

In addition, the new carpet was made and showed in article, where the some of stylized folk music instruments have found own reflected in the form of ornamental elements.

*Мунаввар Гаджиева*
*доцент*

***Новые орнаментальные узоры в азербайджанских коврах***

***Резюме***

***Ключевые слова:*** *азербайджанские ковры, музыкальные инструменты, декоративные элементы, срединная кайма, бордюрная полоса, орнаментальная композиция*

В статье речь идет о разработке новых элементов узора, введенных в композиции народного ковра.

Автор статьи как художник ковра разработала новые элементы узора на основе народных музыкальных инструментов, таких как кяманча, тар, танбур, рюбаб, сантур, гошанагара, балабан, зурна, тулум, и создала новую ковровую композицию.